# Ali təhsildə təlim nəticələri və onların yazılma meyarları

**Mirvari Qasımova**
**filologiya üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**qasimovamirvari@gmail.com**

**Xülasə**

Təlim – təhsil prosesinin uğurlu olmasında hədəflərin düzgün müəyyən edilməsi qədər, onların lazımi şəkildə ifadə edilməsi də önəm daşıyır. Bu proses iki tərəfin – təhsil verənin və təhsil alanın qarşılıqlı əməkdaşlığına əsaslandığından, onun sonunda tərəflərin nə əldə edəcəyi hər iki tərəf üçün aydın olmalıdır. Bu mənada təlim nəticələri adlandırılan və kursun, proqramın, fənnin tədrisindən sonra tələbənin hansı bilik və bacarıqlara yiyələnəcəyini tam və aydın şəkildə nümayiş etdirən kiçik həcmli təsvirlərin təlim prosesində rolu olduqca mühümdür. Məqalədə təlim nəticələrinin mahiyyətinə aydınlıq gətirilir, onların düzgün müəyyən edilməsinə, müvafiq şəkildə yazılmasına xidmət edən amillərə aydınlıq gətirilir, həmcinin, düzgün və effektiv təlim nəticələrinin yazılması üçün mütəxəssislər tərəfindən tövsiyyə edilən bir sıra meyarlara toxunulur. Qeyd edilir ki, təlim nəticələrinin effektivliyinə nail olmaq üçün aktiv feillərdən istifadə etmək, təlim nəticələrinin aydın və lakonik olmasına fikir vermək, müşahidə edilən və ölçüləbilən olmasını diqqət mərkəzində saxlamaq və s. kimi amillər nəzərə alınmalıdır.

**Açar sözlər:** *ali təhsil, yanaşma, kompitensiya, tələbəyönümlü, təlim nəticəsi, ölçüləbilən*

## Learning outcomes in higher education and criteria to write them

***Mirvari Gasimova***
***PhD in philology***
***Azerbaijan State Pedagogical University***
**qasimovamirvari@gmail.com**

**Summary**

In the successful process of training, it is important not only to identify the goals correctly but also to express them adequately. As this process is carried out by two parties - the educator and the student, and as it is based on mutual cooperation, what will be achieved should be clear to both parties from the beginning of the process. In this respect, the role of small descriptions

called learning outcomes which fully and clearly demonstrate what knowledge and skills the student will acquire after the course, program and subject is very important. The article clarifies the essence of the term of learning outcomes, touches on the factors that contribute to their correct determination and points out the principles that help to write them in the most acceptable and correct way. The article also addresses a number of criteria recommended by specialists for writing proper and effective learning outcomes. It is noted that such factors as the use of active verbs, keeping learning outcomes clear and short, ensuring them to be observable and assessable etc. serve to their effectiveness.

**Keywords:** *higher education, approach, competence, student oriented, learning outcome, assessable*

## Результаты обучения в высшем образовании и критерии их написания

**Мирвари Гасымова**
**Кандидат филологических наук**
**Азербайджанский Государственный Педагогический Университет**
**qasimovamirvari@gmail.com**

### Резюме

Правильное определение целей, и их надлежащее выражение играет важный рол при успешном учебно – образовательном процессе. Исходя из взаимного сотрудничества двух сторон - обучающего и обучающего, то, что будет достигнуто в результате обучения, должно быть ясно для обеих сторон. В этом отношении очень важна роль небольших описаний, называемых результатами обучения, которые полностью и наглядно демонстрируют, какие знания и навыки приобретет студент после прохождения курса, программы и предмета. В статье уточняется сущность термина "результаты обучения", затрагиваются факторы, способствующие их правильному определению, и указываются принципы, помогающие записать их наиболее приемлемым и правильным образом. В статье также рассматривается ряд критериев, рекомендуемых специалистами для написания правильных и эффективных результатов обучения. Отмечается, что такие факторы, как использование активных глаголов, сохранение четких и кратких результатов обучения, обеспечение их наблюдаемости и оценки и т.д., способствуют их эффективности.

**Ключевые слова:** *высшее образование, подход, составление, студент, результат обучения, оценка*

**Annotasiya.** Məqalədə ali təhsil müəssisələrində kompitensiyalara əsaslanan yanaşmanın yaradılması prosesində müstəsna önəm daşıyan amildən - təlim nəticəsindən bəhs edilir, onun mahiyyətinə, necə müəyyən edilməsinə aydınlıq gətirilir, effektiv təlim nəticələrinin yazılması üçün mütəxəssislər tərəfindən tövsiyyə edilən meyarlara toxunulur.

**Aktuallıq.** Yaşadığımız dövrün sürətli inkişafı, baş verən yeniliklər bütün fəaliyyət sahələrində olduğu kimi təshsil sferası qarşısında da daima yeni tələblər qoyur. Həm təhsil verən, həm də təhsil alanlar qarşısında belə tələblərin qoyulması mövcud təlim-tədris yanaşmalarının, metadalogiyasının, dərslik və fənn proqramlarının yenidən nəzərdən keçirilməsini labüd edir. Azərbaycanın ali təhsilində kompetensiyalara əsaslanan yanaşmanın formalaşması, həmçinin müəllimə yönəlmiş yanaşmadan tələbəyə yönəlmiş yanaşmaya doğru keçidin təmin edilməsinin də məhz bu aspektdən qiymətləndirilməlidir.

**Metod.** Məqalədə təsvir metodu tətbiq olunmuşdur.

**Giriş:**

Avropa Təhsil məkanına inteqrasiya prosesini sürətləndirmək, onun tamlığını təmin etmək, kompitensiyalara əsaslanan təhsil yanaşmasının mahiyyətini, tələb və fəlsəfəsini ali təhsil müəssisələrinin əməkdaşları, müəllim – pörofessor heyəti arasında təbliğ edərək inkişaf etdirmək üçün Azərbaycan Təhsil Nazirliyinin həyata keçirdiyi bir sıra layihələr, seminar və təlimlər bu mənada məxsusi rola malik olmuşdur. Bütün bunların nəticəsidir ki, cari ildə ali təhsil müəssisələrində bütün fənlərin məzmun və strukturunda əsaslı dəyişikliklərin edildi, təlim nəticələrini özündə əks etdirən, kompitensiyalara əsaslanan yeni Tədris Proqramlarının hazırlandı.

Dünya praktikasında Ali təhsil müəssisələrində təlim nəticələrinin yazılamsı və qiymətləndirilməsi son illər olduqca önəm kəsb edən məsələlərdən biridir. Həm dövlət müəssisələrininin, həm də fərdi sahibkarların iş verən tərəf kimi çıxış etdiyi müasir əmək bazarı və onun tələbləri məsələyə artan diqqətin aparıcı səbəbləri sırasında göstərilə bilər. Eyni zamanda bir çox inkişaf etmiş ölkələrdə dövlətin təhsil siyasətini planlayan rəsmi qurumlar, habelə nüfuzlu özəl şirkətlər də cəmiyyət üzvlərinə mütəmadi olaraq Ali təhsil müəssisələrinin (bundan sonra - ATM) kadr hazırlığı prosesində müəyyən etdiyi təlim nəticələrinə nə dərəcədə müvəffəq olduqlarını yoxlamaqda maraqlı olan tərəf kimi çıxış edirlər. Qeyd edilən bütün maraqlı tərəflər cəmiyyətin bir hissəsi olduğundan ATM-in yetişdirdiyi kadrların müasir biliyə əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsində hansı rol oynadığınıı görürlər və bu prosesə nəzarəti bir növ öz çiyinlərinə götürməyi həm də vətəndaş məsuliyyəti kimi dərk edirlər. Bu proses həm də ATM – in mövqeyinə xidmət etdiyindən onlar özləri də maraqlı təfər qismində fəaliyyətə cəlb olunurlar. Hər bir istehsalçı kimi, ATM –nin də istehlakçılar qarşısında hesabat verməsi, gördüyü işlərin çatışmazlıqlarını təhlilə cəlb etməsi və əldə edilən nəticələri keyfiyyətin

yüksəldilməsinə cəlb etməsi onun cəmiyyət qarşısında daşıdığı məsuliyyətin dərki kimi başa düşülür, imicinin və ona olan marağın artmasına səbəb olur. Bütün qeyd edilənlər təlim nəticələrinin düzgün müəyyən edilməsinin nə qədər önəm daşıdığını bir daha vurğulayır. Bu mənada təlim nəticələrinin yazılması və qiymətləndirilməsi prosesi necə aparılır, bu işdə dünya praktikası nə deyir kimi məsələlərə keçməzdən öncə "Təlim nəticəsi nədir və onu düzgün təyin edildiyinə necə əmin olmaq olar" sulanına toxunaq məqsədəuyğundur.

Təlim nəticəsi tələbəyönlü təhsil yanaşmasının əsasında duran konseptual anlayışlardandır. Bu yanaşmaya ilk dəfə Heyvar (1905) və sonradan Duisin (1956) əsərlərində rast gəlinsə də, onun nəzəriyyə kimi inkişaf etdirilməsi və tanıdılması Karl Rocersin, təhsil və təlim yanaşması kimi inkişaf etdirilməsi isə Jan Piaje və Malkolm Noulisin adı ilə bağlıdır (10, 2). Adları çəkilən nəzəriyyəçi alimlər şagirdlərin kollektiv/qrup işi əsnasında öyrənməsinə diqqət yetirməklə, tələbələrə yönəlmiş öyrənmə prosesinə keçidi əsaslandırmışlar. Mütərəqqi təhsilin tərəfdarı olan Con Dui təlimin sosial və empirik bir proses olduğunu düşünürdü. O, tələbələri tənqidi düşünməyə və real problemləri həll etməyə vadar edən sinif mühitinin yaradılmasının onları gələcəyə hazırlamaq üçün ən yaxşı yol olduğunu düşünürdü yol olduğunu düşünürdü (2). Tələbəyönlü təhsilin inkişaf etdirilməsində şəxsiyyətin formalaşması haqqında fikirləri də əhəmiyyətli rol oynamışdır. Rocers yazırdı ki, "davranışa (və təhsilə) əhəmiyyətli dərəcədə təsir edən yeganə təlim özünü kəşfdir" (6). Tələbəyönlü təhsillə bağlı nəzəri mənbələrdəki fikirləri ümumiləşdirsək, onları növbəti prinsiplər şəklində ifadə etmək mümkündür:

1. *Tələbəyə yönəlmiş yanaşma davamlı refleksiv prosesi tələb edir.* Bu prinsp əsasında duran fəlsəfəyə əsasən, bütün dövrlər üçün yarayan metod və yanaşma mövcud deyil. Müəllimlər, tələbələr və tədris müəssisələri tədris və təlim prosesini mütəmadi nəzərdən keçirməli, onu təkmilləşdirməli və tələbələrin kritik düşüncəsini və səxsi keyfiyyətlərini stimullaşdırmaqla proqram qarşısında qoyulmuş təlim nəticələrinin əldə edilməsini təmin etməlidirlər.

2. *Tələbəyə yönəlmiş yanaşma universal həll yolunu təmin etmir.* Bu prinsip təhsil müəssisələri və təhsil alanların müxtəlifliyini nəzərə almağın vacibliyini vurğulayır. Hər bir fənnə, onun tələbinə uyğun təlim və tədris yanaşması seçmək nəzərdə tuturlur.

3. *Tələbələrin müxtəlif öyrənmə tərzləri vardır.* Tələbələrin fərdi pedaqoji ehtiyaclarının olması, bəzilərinin təcrübə və ondan əldə edilən səhvlərdən, digərlərinin isə daha çox mütaliə və araşdırmadan, debat və diskussiyalardan daha yaxşı öyrəndiklərini unutmamaq və təlim-tədris prosesi boyunca diqqət mərkəzində saxlamaq bu prisipdə önə çəkilir.

4. *Tələblərin müxtəlif maraq və ehtiyacları vardır.* Bu prisipdə öyrənənlərin auditoriyadan kənar maraq və ehtiyaclarını (idmanla

maraqlanmaq, musiqi dinləmək, ictimai işlərə maraq göstərmək, fiziki qusurlu olmaq və s. kimi) nəzərə almağı tövsiyyə edilir.

5. *Seçim, tələbəyə yönəlmiş yanaşmada effektiv öyrənmənin başlıca tərkib hissəsidir.* Tələbələr müxtəlif formada öyrənməyə maraq göstərdiyi üçün onlara fərqli seçimlər təklif etmək lazımdır. Öyrənmə prosesinin effektivliyini təmin etmək üçün təlim prosesi liberal formatlarda və ya daha ənənəvi şəkildə təşkil edilə bilər.

6. *Tələbələr bir-birindən fərqli təcrübəyə və təməl biliklərə malikdirlər.* Bu prinsipə görə, təlim prosesi öyrənənin, fərdin həyatına və təcrübəsinə uyğunlaşdırılmalıdır. Kursa başlamazdan əvvəl tələbələrin öncədən qazandıqları bilik və bacarıqların qiymətləndirilməsi aparılmalıdır və sonrakı proses çatışmayan və ya yetərli olmayan bilik və bacarıqların formalaşdırılmasına və ya təkmilləşdirilməsinə istiqamətləndirilməlidir. Yəni, məsələn, əgər tələbələrdə yetərli tədqiqat bacarığı varsa, onlara bunu yenidən öyrətməklə vaxt itkisinə və öyrənmə prosesinin maraqsız hala düşməsinə səbəbiyyət verməmək üçün onları daha çox nəzəri biliklərlə təmin etmək lazımdır. bundan başqa tələbələrə həyat təcrübələrini, öz görüşlərini digərləri ilə bölüşməyə imkan verməkdən də motivasiyaedici amil kimi istifadə etmək olar.

*7. Tələbələrin öyrənmə prosesinə nəzarəti olmalıdır.* Bu prinsipə görə, kursun, təlim proqramlarının tərtib edilməsində və onların qiymətləndirilmə meyarlarının müəyyən edilməsində tələbələrin iştirakına imkan verilməlidir. Tələbələr ali təhsilin passiv iştirakçısı, təlimat alıb onları həyata keçirən tərəf kimi deyil, onun fəaliyyətində marağı olan fəal tərəfdaşlar kimi qəbul edilməlidir. Təlim prosesinin daha çox tələbəyə yönəldilməsini təmin etməyin ən yaxşı yolu isə təlim formalaşdırılmasına tələbələrin özlərini cəlb etməkdir.

8. Tələbəyə yönəlmiş yanaşmanın başlıca xüsusiyyəti təsir bağışlamaq deyil, imkan
yaratmaqdır. Bu prinsipə görə sadəcə fakt və biliyin tələbəyə ötürülməsi zamanı təşəbbüs, hazırlıq və məzmun əsasən müəllimdən gəlir. Tələbəyə yönəlmiş təlim yanaşması isə tələbəni düşünməyə, təhlil, sintez tənqid, tətbiq etməyə, problemlərin həlli yollarını axtarmağa və s. yönəltməklə ona daha böyük məsuliyyət vermək məqsədini daşıyır.

9. Öyrənmə (tədris) tələbələrlə professor-müəllim heyəti arasında əməkdaşlıq zərurətini
yaradır. Bu yanaşma tələbələrlə pedaqoji heyyətin təlim-təhsil prosesi zamanı yaranan problemlərdə ümumi razılıq yaratmaq üçün əməkdaşlıq etməsini vacib şərt kimi irəli sürür. İrəli sürülən təkliflər və qəbul olunan qərarlar prosesin maraqlı tərəfləri kimi, həm müəllimlərin, həm də tələbələrin əməkdaşlığının nəticəsi olmalı və təhsil müəssisəsi daxilində hər iki qrup maraqlarına xidmət etməlidir. Belə bir əməkdaşlıq nəticəsində hər iki qrup getdikcə bir-birinə tərəfdaş kimi baxmağa başlayır ki, bu da dərs prosesinə də müsbət təsirini

göstərir. Məhz bu cür əməkdaşlıq təlim prosesinin iki tərəf arasında qarşılıqlı konstruktiv fəaliyyət kimi görən tələbəyə yönəlmiş təlimin fəlsəfəsində mərkəzi yer tutur (10, 2-4).

Göründüyü kimi, əsas hədəfi təhsil alanlarla təhsil verənlər arasında qarşılıqlı əməkdaşlığı – ünsiyyəti təmin etmək, təhsil alanları passiv dinləyici qismində görməmək, onları öyrənmə prosesin fəal iştirakçısına çevirməklə kritik düşünmə, problemlərin həlli, komandada işləməyi bacarmaq, sərbəst mütaliə və araşdırma apara bilmək və s. kimi bacarıqları formalaşdırmaq olan bu yanaşmada təlim nəticələrinin müəyyən edilməsi mütləqdir. Bu yanaşmanın tələbləri əsasında yazılan təlim nəticələri müəllimin (öyrədənin) əhatə etməli olduğu mövzulardan ziyadə tələbənin (öyrənənin) edə biləcəyinə, bacaracağına diqqətinin kökləyir və bununla da məzmun hədəfli təhsildən kompitensiya hədəfli təhsilə keçidn əsası qoyulmuş olur.

Mövzuya aid ədəbiyyatda təlim nəticəsi anlayışının müxtəlif formada təsvirinə rast gəlmək mümkündür. Otter təlim nəticəsinin "öyrənənin təlimin sonunda bildiyi və ya bacardığı" bir şey olduğunu qeyd edir (9, 4). R.M.Harden isə qeyd edir ki, təlim nəticələri təlim kursunun sonunda nəyin əldə edildiyinin və qiymətləndirildiyinin geniş ifadəsidir. Müəllif nəticəyə əsaslanan tədrisin və təlim nəticələri konseptinin (anlayışının) müasir təhsilin gündəliyində önəmli yeri olduğunu qeyd edir. (3)Bu kimi fikirləri ümumiləşdirsək təlim nəticəsini öyrənmə prosesinin sonunda əldə edilən xeyri, qazancı təsvir edən ümumiləşdirilmiş fikirlər kimi müəyyən etmək olar.

Burada maraq doğuran məsələrdən biri də təlim nəticələrinin yazılması ilə bağlıdır. İstənilən kurs üzrə proqram və sillabusların tərtibində təlim nəticələrinin göstərilməsi böyük əhəmiyyət kəsb edir. D.Kennedi təlim nəticələrinin yazılmasına və tətbiqinə dair praktik vəsaitində bu məsələnin əhəmiyyətinə toxunaraq qeyd edir ki, proqram və fənlərin təsvirində təlim nəticələrindən istifadə proqramın, yaxud modulun sonunda tələbələrdən nə gözlənildiyini onlara daha aydın şəkildə çatdırır. Bu həmçinin tələbələrə proqramların seçilməsində və tələbə əsaslı təlimdə fəal iştiraka yardım edir (5, 16). Hazırda kurs və ya fənn üzrə proqramların yazılmasında təlim nəticələrinin göstərilməsinə maraq artmaqdadır. Belə ki, bu kursun məzmununda müəllimin əhatə etməli olduğu mövzulardansa tələbənin bilməli, bacarmalı olduğunu vurğulamağa, məzmundan çox kompitemsiyaları önə çıxartmağa imkan yaradır.

Təlim nəticələrinin yazılmasında çətinlik törədən əsas məqam kurs üzrə hədəflərin təlim nəticələrindən fərqləndirilməsidir. Adları çəkilən iki termin arasındakı əsas fərq qısa şəkildə ümumi və ya daha spsecifik xüsusiyyətə malik olmaları ilə izah etmək olar. Proqram və ya kursun hədəfləri tədris məqsədini daha ümumi formada ifadə etdiyi halda təlim nəticələrində kursun sonunda tələbələrdən nə əldə etmələri barədə və həmin bu nəaliyyətləri necə nümayiş etdirməli olduqları haqqında tələb açıq şəkildə öz əksini tapır. **S.Otter** məsələ

ilə bağlı fikirlərində diqqəti kursun hədəflərini və təlim nəticələrini yazan zaman işlədilən ifadələrə yönəldir, "anlamaq, başa düşmək, dərk etmək" kimi ibarələrin təlim dilinə xas olduğunu və kursun sonunda tələbələrin nə anladıqlarını nümayiş etdirməkdə yetərsiz olduqlarını qeyd edir. O qeyd edir ki, kursun məqsədində tələbəyə kursun nələr vəd etməsi təsvir edilir, təlim nəticəsində isə tələbəni necə qarşıya qoyulmuş məqsədə nail olmuş hesab etəyin ən dəqiq təsviri verilir. Müəllif fikirlərini növbəti nümunə ilə əyaniləşdirir:

***Kursun hədəfi (məqsədi):*** post-strukturalizm haqqında anlayış yaratmaq

***Təlim nəticəsi:*** arqumentləri məntiqi şəkildə analiz etmək

aydın və məntiqli arqumentlər təqdim etmək

ehtimalları məüyyən etmək və onları sorğulamaq ( 9, 276-277)

Məlumdur ki, mütəxəssislər isənilən ixtisas üzrə kadr hazırlığı prosesinə fərqli yanaşa, müxtəlif tələbləri lazım bilərək onu təlim nəticələrində ifadə etməyə çalışa bilərlər. Lakin bu fikirlərin hamı tərəfindən anlaşılması üçün bəlli şərtləri bilmək və onlara əməl etmək məqbul təlim nəticəsini ifadə etməyin əsasında durur. Tələbə yönümlü təhsilin spesifikasının təsvirinin veridiliyi və təhlilinin aparıldığı bir sıra mənbələrdə göstərilir ki, təlim nəticələrinin ifadə olunduğu cümlələr bir qayda olaraq bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə ifadə edən aktiv feillərin işlədilməsi ilə xarakterizə edilir. Bu baxımdan təlim nəticələri elə yazılmalıdır ki, orada tələbənin nəyi biləcəyi, qazandığı təcrübələr sonunda nəyi bacaracağı, bu bilik və bacarıqların necə, hansı formada qiymətləndirilməsi açıq ifadə edilsin

Mütəxəsislər təlim nəticələrini yazarkən bəlli bir struktur müəyyən etməyin, onun çərçivəsində işləməyin vacib olduğunu vurğulayır. Təlim nəticələrinin işlənib hazırlanması prosesində Bemjamin Blumun öyrənmə prosesi zamanı düşünmə (fikir) səviyyələrinin əks etdirən sxem müstəsna rola malikdir. B.Blum öyrənmə prosesinində tədris edilənlərə, öyrədilənlərə tələbələrin müansibətinin necə olması barədə apardığı tədqiqatın nəticəsi olaraq öyrətmə elmi sahəsinə Blum taksanomiyasını təqdim etmişdir. Düşünmənin ən sadə səviyyəsi olan biliklə başlayıb ən ali səviyyə hesab edilən qiymətləndirmə ilə bitən bu taksanomiya təlim prosesinin bütün səviyyələrini (bilik-qavrama-tətbiq-təhlil-sintez-qiymətləndirmə) əhatə edən struktura malik olduğundan dünya pedaqoji və metodoloji ədəbiyyatında müxtəlif qiymətləndirmə vasaitlərinin hazırlanmasında ən çox istinad edilənlərdən hesab edilir. (5, 26-27) Bu mənada təlim nəticələrini yazarkən Blum taksanomiyasında dərk etmə prosesininhər bir səviyyəsi üçün təklif edilən aktiv feillərdən geniş istifadə edilməsi təbii hal kimi qiymətləndirilməlidir. Belə ki, təlim nəticələri də məhz kursun sonunda tələbənin nə edə biləcəyinin, nəyi bacaracağının sözlü ifadəsidir. Qeyd etdiklərimizin öyrənmə prosesinin hər səviyyəsi üçün təlim nəticələri nümunəsində nəzərədən keçirək (xarici dil (ingilis) ixtisası üzrə):

1. Bilik - bu səviyyə üçün “tanımaq, xatırlamaq, yadda saxlamaq, adlandırmaq, sifariş etmək, seçmək, təkrarlamaq və s.) kimi fəal feillərdən istifadə etmək tövsiyyə edilir. Məsələn, ingilis dilinin leksik, qrammatik və fonetik strukturunu tanımaq / təsvir etmək

2. Qavrama - bu səviyyə üçün “əlaqələndirmək, dəyişmək, aydınlaşdırmaq, klassifikasiya etmək, təsvir etmək, fərqləndirmək, ümümiləşdirmək, izah etmək və s.) kimi fəal feillərdən istifadə etmək tövsiyyə edilir. Məsələn, dinlədiyi mətndə məlumatı ümumiləşdirərək təqdim etmək

3. Tətbiq - bu səviyyə üçün “tətbiq etmək, dəyərləndirmək, seçmək, dəyişmək, tamamlamaq, qurmaq, nümayiş etdirmək, inkişaf etditmək, və s.) kimi fəal feillərdən istifadə etmək tövsiyyə edilir. Məsələn, indiki zaman formalarını müxtəlif kommunikativ situasiyalarda tətbiq etmək

4. Təhlil - bu səviyyə üçün “təhlil etmək, qiymətləndirmək, təsnif etmək, müzakirə etmək, müqayisə etmək, əlaqələndirmək, nəticə çıxartmaq və s.) kimi fəal feillərdən istifadə etmək tövsiyyə edilir. Məsələn, ingilis dili sait və samit fonemlərini tələffüz xüsusiyyətlərinə görə təsnif etmək və ya oxuduğu mətnə dair düzgün və yalnış məlumat barədə müzakirə aparmaq

5. Sintez - bu səviyyə üçün “toplamaq, təşkil etmək, tərtib etmək, ümumiləşdirmək, yaratmaq, yenidən qurmaq, birləşdirmək və s.) kimi fəal feillərdən istifadə etmək tövsiyyə edilir.

6. Qiymətləndirmə - bu səviyyə üçün mühakimə etmək, tövsiyyə etmək, təhlil etmək, əsaslandrmaq, dəyərləndirmək, seçmək, əlavə etmək, nəticə çıxartmaq, tutuşdurmaq, şərh etmək, icmal vermək, dəstəkləmə və s. kimi fəal feillərdən istifadə etmək tövsiyyə edilir.

Bundan başqa təlim nəticələrinin sayını çoxaltmamağa fikir vermək, yalnız vacib olan bilik və bacarıqları sadə, anlaşıan dildə təsvir etmək tövsiyyə edilir. Təlim nəticələrinin müşahidə edilən və ölçülə bilən olması da vacib tələblərdən biri kimi önə çəkilir. “Əlbəttə ki, bütün təlim nəticələri əlçatan olmalıdır; başqa sözlə, onlar sonda tələbənin nəticəni əldə edib –etmənməsini yoxlamaq imkanı yaradan terminlərlə yazılmalıdır” (7, 75). Müşahidə edilən dedikdə, təlim prosesi ərzində əldə edilən bacarıqların öyrənənlər tərəfindən nümayiş etdirilməsi, əyani şəkildə göstərilməsi nəzərəd tutulur. Ölçülə bilən dedikdə isə, müşahidə olunan və ya nümayiş etdirilən bacarıqların hansı səviyyədə qənaətbəxş olması nəzərdə tutulur. Bu işdə müəllim üçün çətinlik yaradan əsas məsələ tədris metodları, qiymətləndirmə metodları, qiymətləndirmə meyarları və təlim nəticələri arasındakı əlaqə və uyğunluğu düzgün müəyyən etməkdə olur. Təlim, qiymətləndirmə və təlim nəticəsi arasındakı qurulan əlaqə nəticəsində isə ümümi təlim prosesinin şəffaflığı təmin edilmiş olur. Məsələnin bu aspektinə toxunan Ramsden tələbələrdən kursun dəyərləndirilməsinə dair toplanmış məlumata istinad edir və göstərir ki, tələbənin ondan nə gözlənildiyini aydın bilməsi onun sonrakı effektiv təhsil

almasında həyatı əhəmiyyətə malik olur. Bu sahədə aydınlığın olmaması isə adətən ”mənfi qiymətləndirmə, təlim-tədris prosesində çətinliklərin olması və tələbələrin aşağı müvəffəqiyyət göstəriciləri ilə əlaqəli olur (5,59).

**Nəticə:** Kompitensiyalara əsaslanan təhsil yanaşması müasir təhsil sistemində aparıcı mövqeyi ilə seçilir və dünyanın əksər aparıcı təhsil məkanları fəaliyyətlərini bu yanaşmanı tələbləri istiqamətində təşkil edirlər. Təlim – təhsil prosesinin bu yanaşma əsasında təşkil edilməsində tələbəyə yönəlmiş təlim fəlsəfəsinin əsas kimi götürülməsi və təlim nəticələrinin düzgün təyini və tətbiqi olduqca vacib amil kimi özünü göstərməkdərir. Son nəticədə isə, hər kimi amil təlim-təhsil prosesinin şəffaflığını təmin etməklə ümümi nəticənin yüksəldilməsinə, əmək bazarının ehtiiyaclarınn ödənilməsinə xidmət edir.

**Ədəbiyyat:**

1. Bloom, B.S. Taxonomy of Educational Objectives, Book 1 Cognitive Domain. Longman Publishing, 1975
2. Crumly Cari, Dietz Pamela, D’Angelo Sarah “Pedagogies for Student-Centered Learning” :Online and Onground. Augsburg Fortress Publishers, 2014 doi:10.2307/j.ctt9m0skc.5. ISBN 978-1-4514-8953-8. JSTOR j.ctt9m0skc
3. Harden R.M. Learning outcomes and instructional objectives: is there a difference? https://doi.org/10.1080/0142159022020687
4. John Burke Outcomes, Learning and the Curriculum. Implications for NVQs, GNVQs, and other qualifications. The Palmer Press, Taylor and Francis Inc., 2003
5. Kennedy, D. Writing and using learning outcomes: a practical guide, Cork, University College Cork, 2006.
6. Kraft, R.G. (Bike riding and the art of learning. In L.B.Narnes, C.Ronald Christensen, A.J.Hansen (Eds.) Teaching and the case method. Boston: Harvard Business School Press, 1994, Pg.41 https://en.wikipedia.org/wiki/Student-centered_learning
7. Moon, J. The Module and Programme Development Handbook. London: Kogan Page Limit, 2002
8. Ramsden, P Learning to Teach in Higher Education, London: Routledge, 2003.
9. Sue Otter Learning Outcomes in Higher Education. A development project report, Crown Copyright, 1992
10. Student Centred Learning. Tooklit for students, staff and higher education institutions. Education International. The European Students’ Union. Brussels, October 2010